UOT: 338.012 JEL: Q13;Q18; M10

Hüseyn Elçin oğlu DAŞPOLADOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: huseyn.dashpoladov@gmail.com
https://doi.org/10.30546/4.71.731.03.2026.58

KƏND TƏSƏRRÜFATINDA KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN MÜASİR VƏZİYYƏTİ

Xülasə

Tədqiqatın məqsədi kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin müasir vəziyyətinin təhlilindən və tədqiqindən ibarətdir.

Tədqiqatın metodologiyası olaraq analiz, sintez, statistik təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Bunlarla bərabər, kənd təsərrüfatının inkişafında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin təhlili və qiymətləndirilməsi istiqamətlərində müxtəlif tədqiqatçıların araşdırmalarına istinadlar olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti ilk növbədə müasir şəraitdə kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin gücləndirilməsinə dair səmərəli mexanizmlərin hazırlanmasından ibarətdir.

Tədqiqatın nəticələri kimi məqalədə verilmiş təkliflərdən kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin görülməsi baxımından faydalıdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi nöqteyi-nəzərindən, qeyd edək ki, kənd təsərrüfatında kiçik və orta sahibkarlığın rolunun artırılması üzrə konseptual nəzəri-praktiki və metodoloji baxışlar müəyyənləşdirilmişdir. Eyni zamanda, kənd təsərrüfatında kiçik və orta sahibkarlığın inkişafının sürətləndirilməsi üzrə daha təsirli tədbirlərin görülməsinə zərurətin olduğu bildirilmişdir. Bunlarla bağlı tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, kənd təsərrüfatı, kənd təsərrüfatının inkişaf problemləri, kiçik və orta sahibkarlıq, kənd təsərrüfatının nkişaf perspektivləri, sahibkarlığın inkişaf problemləri.

Giriş

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının neftqaz amilindən asılılığının azaldılmasında kənd təsərrüfatı sahəsinin rolu müstəsna əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə Prezident İlham Əliyev qeyd etmişdir ki, bu sahəyə daim çox böyük diqqət göstərilir... Kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri... Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir [4]. Göründüyü kimi, kənd təsərrüfatının inkişafına yeni nəfəs tələb olunur və daha təsirli tədbirlərin görülməsi vacibdir.

Qeyd edək ki, kiçik və orta sahibkarlıq (KOS) subyektləri kənd təsərrüfatında əsas istehsal vahidlərini təşkil edir. Onların fəaliyyəti kənd yerlərində iş yerlərinin yaradılması, yerli resursların səmərəli istifadəsi və əhalinin rifah halının yüksəldilməsi baxımından olduqca vacibdir. Ölkədə iqtisadi vəziyyətin qiymətləndirilməsi iqtisadi artımı təmin etməyə qadir olan xüsusi resurs kimi KOS-un rolunun əhəmiyyətli dərəcədə artdığını göstərir.

Transformasiya dəyişiklikləri mərhələsində KOS subyektlərinin inkişafı rəqabət mühitinin və iqtisadiyyatın rasional strukturunun formalaşmasına, orta təbəqənin formalaşmasına, işsizliyin azaldılmasına, bütün səviyyələrdə büdcələrin gəlir hissəsinin artmasına və s. töhfə verir. İqtisadiyyatın kənd təsərrüfatı sektorunda KOS subyektlərinin inkişafının əsası ərzaq təhlükəsizliyini təmin etmək və əhali rifahını yaxşılaşdırmaq üçün kənd yerlərində biznes fəaliyyətinin formalaşması prosesinə təsir edən məqsədlərin, vəzifələrin, tendensiyaların və xüsusiyyətlərin başa düşülməsi və müəyyənləşdirilməsinə dair yanaşmaların, baxışların məcmusudur.

Müasir dövrdə kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin təhlili

Kənd təsərrüfatında səmərəlilik əsas etibarı ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalından tutmuş son məhsulun əhaliyə satışına qədər iqtisadiyyatın kənd təsərrüfatı sektorunun istehsal potensialına əsaslanır. Əsas məqsəd kənd yerlərində KOS subyektlərinin inkişafı üçün prioritet sahələrin müəyyənləşdirilməsinə əlaqələndirilmiş yanaşma formalaşdırmaqdır ki, onların arasında həmin təsərrüfat subyektlərinin iştirakı ilə inteqrasiya olunmuş kənd təsərrüfatı birləşmələrinin yaradılması müəyyən yer tutur. Bu məqsədə kənd təsərrüfatında və kənd yerlərində bütün mülkiyyət növlərinin və idarəetmə formalarının inkişafına yönəlmiş tədbirlərin reallaşdırılması yolu ilə nail olunur.

KOS subyektləri hər bir ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Bu sektor məşğulluğun artırılması, innovasiya fəaliyyətinin dəstəklənməsi və iqtisadi şaxələndirmə baxımından əhəmiyyətlidir. Belə ki, həmin subyektlər müasir iqtisadiyyatın əsas dayaq sütunlarından biri hesab olunur. Onlar təkcə iqtisadiyyatın dinamikliyini təmin etmir, həm də məşğulluğun artırılmasına, innovasiyaların tətbiqinə və bazar rəqabətinin gücləndirilməsinə töhfə verir [5, s. 37].

Kənd təsərrüfatında KOS subyektlərinin uğurlu inkişafı üçün həmin sektorun xüsusiyyətləri nəzərə alınmalıdır. Kiçik, orta və iri biznes subyektlərinin hər biri maliyyə münasibətləri baxımından fərdi və ümumi xüsusiyyətlərə malikdir. Fərdi maliyyə xüsusiyyətlərinə, iri biznes subyektlərində bunlar əsasən səhmlər və qiymətli kağızların dövriyyəsi ilə bağlıdır. KOS-da isə dövlət tərəfindən göstərilən yardımlar və güzəştlər, ev təsərrüfatları, əhali və ailə büdcələri ilə bağlı maliyyə münasibətləri əsas rol oynayır. Ümumi xüsusiyyətlərə məhsulun satışından, xidmətlərin göstərilməsindən, istehsal vasitələrinin alınmasından yaranan maliyyə münasibətləri, habelə kredit və sığorta bazarları vasitəsilə, eləcə də vergi siyasəti çərçivəsində formalaşan münasibətlər daxildir [2, s.22].

Kənd təsərrüfatında KOS subyektlərinin fəaliyyəti təbiət hadisələrindən asılıdır. Belə ki, hava şəraitinin qəfil dəyişməsi məhsulun həcminin azalmasına və ya hətta itkisinə səbəb ola bilər. Həmçinin istehsalın və əməyin mövsümiliyini kənd təsərrüfatının təbii xüsusiyyətlərinə aid etmək olar. Bu sənayedə istehsal dövrü tamamilə ilin vaxtından asılıdır. Bitki və heyvanların dövri inkişafı ilə əlaqədar olaraq mövsümilik qaçılmaz faktordur.

Başqa bir fərqləndirici xüsusiyyəti məhsulların tez xarab olması ilə bağlıdır. Bu baxımdan onun satışının reallaşdırılması vaxtında təşkil edilməlidir, əks halda hər hansı gecikmələr malın xarab olmasına və satışın çətinləşməsinə səbəb ola bilər. Bu proseslərin daha səmərəli təşkili üçün maliyyə mexanizmlərinin gücləndirilməsi və alternativ maliyyə mənbələrinin dövriyyəyə cəlb edilməsi vacib şərtlərdəndir.

Belə ki, KOS-ların daha intensiv inkişafı üçün maliyyə alətlərinin müxtəlifliyinə diqqət yetirilməlidir. Bu baxımdan, islam maliyyə alətlərindən istifadə olunması perspektivləri də vardır. Belə ki, islam maliyyə alətlərinin inteqrasiyası Azərbaycanda KOS-ların inkişafına dəstək üçün gələcək vəd edir. İrəliləmək, maarifləndirmə, tənzimləyici bazaları təkmilləşdirmək və islam maliyyə məhsullarının çeşidini genişləndirmək üçün davamlı səylər Azərbaycanda KOS-un inkişafına təkan vermək üçün islam maliyyəsinin tam potensialını reallaşdırmaq üçün vacib olacaqdır [6, s. 63].

Kənd təsərrüfatında KOS subyektlərinin fəaliyyətinə təsir edən iqtisadi amilləri də nəzərə almaq lazımdır. Belə ki, hər hansı bir məhsulun ixracına qadağa qoyulması istehsal olunan malın satıla bilməyəcəyinə və müvafiq olaraq, sahibkarın itkiyə məruz qalmasına gətirib çıxaracaq. Bazar konyunkturasının, qiymətlərin, tələb və təklif səviyyələrinin daimi dəyişməsini də nəzərə almaq lazımdır. Kənd təsərrüfatı müxtəlif ölkələrin və şəhərlərin sakinləri üçün əsas qida mənbəyidir. Kənd təsərrüfatı sənayesinin fərqli xüsusiyyətlərinin olması ona KOS-a və onun səmərəliliyinə təsir göstərməyə imkan verir [9, s.30].

Qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatının inkişafının sürətləndirilməsi istiqamətində aqrar sahədə struktur dəyişikliklərinin aparılması və kənd təsərrüfatının inkişafının intensivləşdirilməsi vacib məsələlər kimi xarakterizə olunur. Professor, Əməkdar elm xadimi B.X.Ataşov qeyd edir ki, kənd təsərrüfatının qlobal iqtisadiyyata inteqrasiyası istiqamətində irəliləyişlər baş verib.

Eyni zamanda, qeyri-neft iqtisadiyyatının sürətli inkişaf strategiyasının reallaşdırılması şəraitində aqrar sahədə struktur və səmərəlilik məsələləri diqqəti daha çox cəlb etməkdədir [1, s. 10].

Azərbaycanda kənd təsərrüfatı sektorundakı KOB subyektlərinin səmərəli fəaliyyəti, əsasən, əlverişli və azad biznes mühitinin formalaşdırılması və inkişafı ilə birbaşa əlaqəlidir. Kənd təsərrüfatı biznesi sektorunda azad iqtisadi münasibətlər şəraitində biznes subyektləri tək-tək və təcrid olunmuş şəkildə deyil, qarşılıqlı əlaqə və asılılıq əsasında, liberal biznes mühitində optimal fəaliyyət göstərirlər ki, bu da hər bir biznes subyektinin müstəqil mövqeyini və fəaliyyət istiqamətini müəyyənləşdirməyə imkan verir.

Kənd təsərrüfatında KOS subyektlərinin davamlı fəaliyyəti üçün qətiyyətli və məqsədyönlü iqtisadi siyasətin aparılması vacibdir. Bu baxımdan, son dövrlərdə dövlət tərəfindən elmi əsaslara söykənən mühüm qərarlar və tədbirlər reallaşdırılmışdır. Ölkədə formalaşmış iqtisadi, sosial-mədəni və siyasi mühit, eləcə də mövcud rəqabət şəraiti, sahibkarlıq subyektlərinin cəmiyyətdəki rolu və aktivliyinə birbaşa təsir edir.


Azərbaycanda KOS subyektlərinin inkişafı dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri kimi qəbul olunur. Bu inkişaf, regionların sosial-iqtisadi tərəqqisinə, əhalinin gündəlik iqtisadi və sosial problemlərinin həllinə, mikroiqtisadi sabitliyin qorunub saxlanmasına və möhkəmləndirilməsinə ciddi töhfə verir. Son illərdə reallaşdırılan islahatlar çərçivəsində ölkədə makroiqtisadi sabitlik qorunmuş, iqtisadiyyatın mümkün qədər şaxələndirilməsi məqsədilə addımlar atılmış və biznes sahəsindən asılı olmayaraq KOB üçün əlverişli mühit formalaşdırılmışdır.

KOS subyektlərinin məşğulluğun artırılmasında, rəqabət qabiliyyətinin yüksəldilməsində, davamlı iqtisadi inkişafın təmin olunmasında və ümumi iqtisadi artıma töhfə verməsində rolu danılmazdır. Buna görə Azərbaycanda KOS subyektləri üçün münasib və dəstəkləyici mühitin yaradılması və bu mühitin davamlı şəkildə təkmilləşdirilməsi strateji əhəmiyyət daşıyır. Bununla belə, KOS-un yalnız üstün cəhətləri ilə deyil, qarşılaşa biləcəyi çətinliklər də nəzərə alınmaqla qiymətləndirilməsi vacibdir.

KOS subyektlərinin problemləri arasında aşağıdakı məsələlər qeyd oluna bilər: maliyyələşmə imkanlarının məhdudluğu; maliyyə vəsaitlərinə çıxışda çətinliklərin mövcudluğu; dövlət dəstəyi olmadan ixrac potensialının zəifliyi; daxili və xarici bazarlara çıxış imkanlarının iri müəssisələrlə müqayisədə zəif olması; bəzi idarəçilik çatışmazlıqları; peşəkar işçi qüvvəsinin cəlb edilməsində məhdudiyyətlər; texnoloji yeniliklərin tətbiqinin yavaş tempdə baş verməsi; mövsümilik faktoruna görə kənd təsərrüfatı sektorunda ilboyu eyni istehsal səviyyəsinin qoruna bilməməsi və s.

Kənd təsərrüfatındakı KOS subyektləri müxtəlif istiqamətlərdə fəaliyyət göstərirlər ki, bunlar əsasən bitkiçilik, heyvandarlıq, arıçılıq, quşçuluq, istehsal və ilkin emal, aqroturizm və kənd təsərrüfatı xidmətləri sahələridir.

Şəkil 1-də Azərbaycanda kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı verilmişdir.



Şəkil 1. Azərbaycanda kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı, vahid

Mənbə: https://www.stat.gov.az/source/entrepreneurship/

Qeyd edək ki, kənd təsərrüfatında fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı 3724 olub ki, bunun 3259-u və ya 87,5%-i mikro, 306-sı və ya 8,2%-i kiçik, 159-u və ya 4,3%-i isə orta sahibkarlıq subyektlərinin payına düşür. Tədqiq etdiyimiz dövrlərdə mikro sahibkarlıq subyektlərinin sayı davamlı artdığı halda, bunu KOS-lar üçün demək olmaz. Kənd təsərrüfatı sektorunda mikro, kiçik və orta sahibkarlıq subyekti kimi işləyən muzdlu işçilərin sayı 20822 nəfər olub ki, bunun 14032 nəfəri və ya 67,4%-i orta, 4579 nəfəri və ya 22,0%-i kiçik, 2211 nəfəri və ya 10,6%-i isə mikro sahibkarlıq subyektlərinin payına düşür. Tədqiq etdiyimiz dövrlərdə orta sahibkarlıq subyektlərinin sayı davamlı artdığı halda, bunu mikro və kiçik sahibkarlıq strukturlarında işləyən muzdlu işçilər üçün demək olmaz.

Azərbaycanda kənd təsərrüfatında mikro müəssisələrin sayının artmasına baxmayaraq, muzdlu işçilər əsasən orta müəssisələrdə çalışırlar. Kənd, meşə və balıqçılıq təsərrüfatlarında 1777,4 min nəfər işçi çalışıb ki, bunun 20822 nəfəri və ya 1,17%-i mikro, kiçik və orta sahibkarlıq subyekti kimi fəaliyyət göstərən müəssisələrdə işləyən muzdlu işçilərin payına düşür. Həmin ildə ölkə üzrə məşğulların sayında kənd təsərrüfatının xüsusi çəkisi isə 35,8% təşkil etmişdir.

Kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin müasir vəziyyəti

Qeyd edək ki, kənd təsərrüfatında çalışan iş adamlarında sahibkarlıq keyfiyyətlərini formalaşdırmaq və bu məqsədlə müvafiq kurslar təşkil etmək lazımdır. Kənd təsərrüfatının və kənd yerlərinin davamlı inkişafı üçün kənd təsərrüfatı sahibkarlarının təhsilinin və kənd təsərrüfatı işçilərinin bacarıqlarının davamlı olaraq təkmilləşdirilməsinin əsas yolu aqrar təhsil sisteminin inkişaf etdirilməsidir. Kənd təsərrüfatı sahibkarlığının bilik və bacarıqlarının yenilənməsi resursa qənaət edən texnologiyalardan istifadə etməklə kənd təsərrüfatı istehsalının səmərəliliyini artırmağa, material və əmək xərclərini azaltmağa, daxili və xarici bazarlarda rəqabət qabiliyyətini qorumaq üçün məhsulların maya dəyərini aşağı salmağa və keyfiyyətini yaxşılaşdırmağa imkan verir.

Digər tərəfdən, kənd təsərrüfatının sabit və dinamik inkişafı olduqca vacibdir. Belə ki, kənd təsərrüfatı hər bir ölkənin iqtisadiyyatında, əhalinin yaşayış səviyyəsinin və məşğullluğunun gücləndirilməsində əhəmiyyətli rola malik milli iqtisadiyyat sahələrindəndir. Azərbaycanda kənd təsərrüfatının qədim tarixi vardır. Azərbaycan üçün daha əlamətdar bir hal ondan ibarətdir ki, ölkə əhalisinin yarısı kənd yerlərində yaşayır. Bu baxımdan, kənd təsərrüfatının inkişafı, buradakı fəaliyyət proseslərinin intensivləşdirilməsi vacib hesab olunur [3, s. 254].

İqtisadiyyatın kənd təsərrüfatı sektorunda vacib problem KOS subyektlərinin kreditləşdirilməsidir. Bir çox bazar iştirakçılarının fikrincə, torpaq üzərində xüsusi mülkiyyət hüququ olmadan kənd təsərrüfatında KOS-un səmərəli şəkildə kreditləşdirilməsi mümkün deyil. Həqiqətən də, bir çox ölkələrdə torpaq bank kreditlərinin cəlb edilməsi üçün etibarlı təminat növlərindən biri hesab olunur. Habelə, borcalanın ödəmə qabiliyyətinin qiymətləndirilməsinə ehtiyac yoxdur ki, bu da kreditlə bağlı müraciət prosedurunu sadələşdirir və kreditin nəzərdə tutulan məqsədinin əsaslandırılmasını tələb etmir.

Sahibkarlığın İnkişaf Fondu (SİF) tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisələrinə güzəştli şərtlərlə verilən kreditlərin həcmi ən çox 278,8 milyon AZN olmaqla 2015-ci ildə olmuş, daha sonra azalmağa doğru başlamış, lakin son 4 ildə onların həcmi davamlı artmışdır. 2024-cü ildə həmin sektora 147,4 milyon güzəştli kredit verilmişdir ki, bunun 132,2 milyon AZN-i (89,7%) istehsal, 15,2 milyon AZN-i isə (10,3%) emal müəssisələrinin payına düşür [7]. SİF, yalnız kənd təsərrüfatı sektoru ilə məhdudlaşmayaraq digər sahələrin də güzəştli şərtlərlə kreditləşdirilməsini reallaşdırır. Bununla belə, kənd təsərrüfatı istehsalçılarının maliyyə ehtiyatları ilə təmin olunması, maliyyələşdirmə obyektləri və təşkili prinsipləri baxımından digər sahələrin kreditləşdirilməsindən önəmli dərəcədə fərqlənir [8, s.17].

Kənd təsərrüfatında KOB-la məşğul olan fiziki və hüquqi şəxslərin böyük bir hissəsinin maddi-texniki bazası zəifdir, maliyyə resursları məhduddur, daxili bazar tam qorunmur, meliorasiya və irriqasiya sistemlərinin bir çox yerlərdə sıradan çıxması, emal müəssisələrinin tam gücü ilə fəaliyyət göstərməməsi və kənd təsərrüfatı sahəsinin fərqli bölmələri arasında dəyər zəncirinin qurulmaması kimi problemlər mövcuddur. Bu amillər sahədə mövcud olan çətinliklərin həllini mürək-

kəbləşdirir. Beləliklə, kənd təsərrüfatı sektoruna maliyyə resurslarının cəlb olunması, xüsusilə beynəlxalq və milli layihələrin reallaşdırılması yolu ilə mövcud problemlərin aradan qaldırılmasına və sahənin sürətli inkişafına ciddi töhfə vermək olar.

Hazırda Azərbaycanda kənd təsərrüfatı müəssisələrinin əksəriyyəti dövlətin aktiv maliyyə dəstəyindən, o cümlədən kompensasiya ödənişləri və kredit təminatından asılıdır. Azərbaycanda kənd təsərrüfatına subsidiyalaşdırılmış dəstək bu sahə istehsalının inkişafının əsas yoludur. Borc vəsaitlərinin əlçatanlığını artırmaq üçün güzəştli qısamüddətli investisiyalar çərçivəsində aşağı faiz dərəcəsi ilə (illik 1%-dən 5%-ə qədər faiz dərəcəsi ilə) iki bank məhsulunun təqdim edilməsi məqsədəuyğundur: güzəştli qısamüddətli kredit, güzəştli investisiya krediti. Maliyyə-kredit mexanizminin nəzərdən keçirilən aləti kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq altsahələrinin inkişafına təkan verər. Bunlara əsaslanaraq, Azərbaycanın kənd təsərrüfatında KOS subyektlərinin maliyyələşdirilməsi sisteminin səmərəliliyinin artırılması əsas prioritetlərdən olmalıdır.

Vergi sistemi ümumilikdə investisiyaların cəlb edilməsinə müsbət və ya mənfi təsir göstərə bilər. Məsələn, fəaliyyətə yeni başlayan sahibkarlar üçün nəzərdə tutulmuş vergi güzəştləri onların böyüməsinə və sərmayə axınını artırmağa kömək edə bilər. Əksinə, vergi prosedurlarının çox mürəkkəb olması və yüksək vergi dərəcələri potensial investorların marağını azalda bilər ki, bu da yeni layihələrin reallaşmasını əngəlləyəcək.

Bundan əlavə, vergilər məhsul və xidmətlərin qiymətlərinə də təsirsiz ötüşmür, vergi yükünün artması nəticəsində şirkətlər məhsul qiymətlərini artırmaq məcburiyyətində qala bilərlər. Bu isə xüsusilə rəqabətin yüksək, qiymətin isə istehlakçılar üçün həlledici rol oynadığı bazarlarda tələbin azalmasına gətirib çıxara bilər. Bu səbəbdən KOS-lar fəaliyyətlərini planlaşdırarkən vergi məsələlərinə ciddi diqqət yetirməlidirlər. Effektiv vergi planlaşdırması həm vergi risklərini azaltmağa, həm də maliyyə axınlarını səmərəli idarə etməyə şərait yaradır. Bunun üçün isə sahibkarlar vergi qanunvericiliyini yaxşı bilməli və onun dəyişikliklərinə çevik şəkildə uyğunlaşma bacarığına malik olmalıdırlar.

Nəticə

Beləliklə, müasir şəraitdə kənd təsərrüfatında KOS subyektlərinin rolu getdikcə artır və bu sahədə islahatlar fermerlər üçün xüsusi güzəştli kredit və sığorta alətləri genişləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqinin təşviq olunması, kənd təsərrüfatı kooperativləri üçün hüquqi və təşkilati stimulların gücləndirilməsi, iqlim dəyişikliklərinə uyğunlaşma üçün su təsərrüfatı və torpaq idarəetməsi üzrə islahatların aparılması, aqrar təhsil və maarifləndirmə proqramları genişləndirilməsi istiqamətlərində davam etdirilməlidir.

Azərbaycanın kənd təsərrüfatında kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin təhlili və qiymətlndirilməsinin nəticələrinə əsaslanaraq aşağıdakı istiqamətlərdə tədbirlərin reallaşdırılmasına diqqət yetirilməsini zəruri hesab edirik:

– Kənd yerlərində KOS subyektlərinin fəaliyyətlərinin səmərəliliyinin artırılmasının əsas mərhələlərindən biri, mülkiyyət və idarəetmə formasından asılı olmayaraq kənd təsərrüfatı məhsulları istehsalçıları üçün rəqabət mühitinin yaradılması və gücləndirilməsidir;

– Dövlət dəstəyi mexanizmlərinin müxtəlif səviyyələrdə təkmilləşdirilməsi və kənd təsərrüfatında KOS subyektlərinin fəaliyyətlərinin inkişafı üçün həm mövcud iqtisadi şəraitin, həm də yeni iqtisadi mexanizmlərin formalaşdırılması vacibdir;

– Eyni zamanda, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən KOS subyektlərinin səmərəli fəaliyyətini təmin etmək üçün regionlarda dövlət dəstəyi gücləndirilməli, normativ-hüquqi çərçivə yenilənməli, bu təsərrüfatların idarə olunmasına dair təşkilati və iqtisadi mexanizmlər yaradılmalı və inkişaf etdirilməlidir və s.

ƏDƏBİYYAT

1. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika) – Bakı, 2017, “Kooperasiya” nəşriyyatı, 536 s.

2. Əhmədov, S.T. Aqrar sahədə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinin xüsusiyyətləri (Gəncə-Qazax iqtisadi rayonunun timsalında). Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Gəncə, 2021, 30 s.
3. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt. 2018, – 376 s.
4. İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib. 25 may 2026.
5. Kişizadə, T. Kiçik və Orta biznes sahibkarlığının dövlət tənzimləməsində inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 3 / 36-44.
6. Səfərov, M. Azərbaycan Respublikasında kiçik və orta biznesin inkişafında islam maliyyə alətlərindən istifadənin əhəmiyyəti. "Iqtisadi islahatlar" elmi-analitik jurnal № 1(10), – s.47-65.
7. SİF-in illik hesabatları: [Elektron resurs]/ URL: https://edf.gov.az/az/content/22.
8. Yusifov Ş.A. Aqrar sahədə kiçik və orta sahibkarlığın inkişafında maliyyə-kredit mexanizminin təkmilləşdirilməsi istiqamətləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2017, 30 s.
9. Журавлева, И.И. Предпринимательство в сельском хозяйстве: проблемы и перспективы развития / И.И. Журавлева // Бизнес-образование в экономике знаний. – 2018. – № 1(9). – С. 29-32

Гусейн Эльчин оглы Дашполадов
докторант Азербайджанского Университета Кооперации,
E-mail: huseyn.dashpoladov@gmail.com

Текущее состояние малых и средних предприятий в сельском хозяйстве

Резюме

Целью исследования является анализ и изучение текущего состояния деятельности малых и средних предприятий в сельском хозяйстве.

В исследовании использовалась методология анализа, синтеза, статистического анализа и методов обобщения. Наряду с этим, были сделаны ссылки на работы различных исследователей в области анализа и оценки деятельности малых и средних предприятий в развитии сельского хозяйства.

Прикладное значение исследования заключается прежде всего в разработке эффективных механизмов усиления деятельности малых и средних предприятий в сельском хозяйстве в современных условиях.

Результаты исследования полезны с точки зрения принятия комплексных мер по совершенствованию деятельности малых и средних предприятий в сельском хозяйстве, как это предложено в статье.

С точки зрения оригинальности и научной новизны исследования следует отметить, что были выявлены концептуальные, теоретические, практические и методологические взгляды на повышение роли малых и средних предприятий в сельском хозяйстве. Одновременно была отмечена необходимость принятия более эффективных мер по ускорению развития малых и средних предприятий в сельском хозяйстве. В этой связи были разработаны рекомендации и внесены предложения.

Ключевые слова: Азербайджан, сельское хозяйство, проблемы развития сельского хозяйства, малый и средний бизнес, перспективы развития сельского хозяйства, проблемы развития предпринимательства.

Huseyn Elchin Dashpoladov
Doctoral student at Azerbaijan Cooperation University,
E-mail: huseyn.dashpoladov@gmail.com

Current status of small and medium-sized enterprises in agriculture

Summary

The purpose of the study is to analyze and study the current state of the activities of small and medium-sized enterprises in agriculture.

The methodology of the study – analysis, synthesis, statistical analysis and generalization methods were used. Along with these, references were made to the studies of various researchers in the areas of analysis and assessment of the activities of small and medium-sized enterprises in the development of agriculture.

The applied significance of the research is primarily in the development of effective mechanisms for strengthening the activities of small and medium-sized enterprises in agriculture in modern conditions.

The results of the research are useful in terms of taking complex measures to improve the activities of small and medium-sized enterprises in agriculture, as proposed in the article.

From the point of view of the originality and scientific novelty of the research, it should be noted that conceptual, theoretical, practical and methodological views on increasing the role of small and medium-sized enterprises in agriculture have been identified. At the same time, it has been stated that there is a need to take more effective measures to accelerate the development of small and medium-sized enterprises in agriculture. Recommendations have been developed and proposals have been made in this regard.

Key words: Azerbaijan, agriculture, agricultural development problems, small and medium-sized businesses, agricultural development prospects, entrepreneurship development problems.